**Doktoranturaya sənəd qəbulu üçün təlimat**

***Sual 1. Doktorantura səviyyəsinə necə qeydiyyatdan keçməliyəm?***

Ali təhsil müəssisələrinin doktorantura səviyyəsinə qəbul olmaq istəyən şəxs əvvəlcə “portal.edu.az” saytında qeydiyyatdan keçməlidir. Bunun üçün əsas səhifəyə daxil olaraq “Qeydiyyat” düyməsinə sıxıb uyğun səhifəyə keçid edin.

***Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyat etməliyəm?***

Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur.

***Sual 3. Şifrəmi unutmuşam. Necə bərpa etməliyəm?***

Şəxsi kabinetə giriş zamanı şifrənizi unutduğunuz halda əsas səhifədən “Şifrəni unutdun?” düyməsinə klikləyin və açılan pəncərədə əvvəlcə elektron poçt ünvanını daxil edin. Açılan növbəti pəncərədə mobil nömrənin son 4 rəqəmini daxil edin. Nömrəyə gələn təsdiq kodu daxil edildikdən sonra yeni şifrə təyin edilməlidir.

***Sual 4. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?***

Sistemə daxil olduqdan sonra “Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatı” xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

***Sual 5. Şəxsi məlumatlarımı necə doldurmalıyam?***

Sistemə daxil olduqdan sonra şəxsi məlumatlarınız avtomatik əks olunur. Təsdiq edirsinizsə, “növbəti addımı” düyməsini sıxmalısınız.

***Sual 6. Qəbul məlumatlarımı necə daxil etməliyəm?***

Qəbul olmaq istədiyiniz təhsil pilləsi, təhsil səviyyəsini, müəssisəni, ixtisası, təhsilalma formasını və ödəniş formasını seçməlisiniz. İxtisas şifrəsi avtomatik əks olunur.

***Sual 7. Qəbul məlumatlarımı necə daxil etməliyəm?***

Sənədlərinizi pdf formatında, hamısını bir səhifədə əlavə etməyiniz məsləhət görülür. Bir neçə səhifəni eyni xanaya əlavə edə bilməyəcəksiniz.

***Sual 8. Hansı xanalar məcburidir?***

Vacib sənədlər müraciət et düyməsinə sıxdıqda qırmızı rəng alır. Müraciət et düyməsini sıxdıqda qırmızı rəng alan bütün xanalara tələb olunan sənədi əlavə etməlisiniz.

***Sual 9. Əlavə etmək istədiyim sənədlər üçün xana sayı az olarsa, nə etməliyəm?***

Digər sənəd xanasının yanındakı “+” düyməsinə sıxmaqla xana sayını artıra bilərsiniz.

***Sual 10. Sənədlərimin qəbul edilməsi barədə necə məlumat ala bilərəm?***

Sənədlərinizin qəbul edilib-edilmədiyi barədə müraciət etdiyiniz müəssisə sizə sistem və sms vasitəsilə məlumat göndərəcəkdir. Şəxsi kabinetinizi davamlı şəkildə izləməyiniz xahiş olunur.

***Sual 11. Hazırda vətəndaş magistraturanın ikinci kurs tələbəsidirsə, diplom yerinə nə yükləməlidir?***

Vətəndaş magistraturanın ikinci kurs tələbəsidirsə, təhsil aldığı müəssisədən təhsil alması barədə skan versiyada “Arayış” yükləməlidir.

***Sual 12. Kadrların şəxsi-qeydiyyat vərəqinə iş yerindən möhür vurulmalıdırmı?***

Kadrların şəxsi-qeydiyyat vərəqinə iş yerindən möhür vurulmalıdır.

***Sual 13. İş yerindən xasiyyətnamə və əmək kitabçası vacibdirmi?***

- İş yerindən xasiyyətnamə və əmək kitabçası vacibdir.
- Əgər vətəndaş heç bir yerdə işləmirsə, A4 vərəqinə əlyazma və ya elektron fərq etmədən “mən heç bir yerdə işləmirəm” yazıb yükləməlidir.
- Əgər vətəndaş əvvəlcə işləyib hazırda işləmirsə, əmək kitabçasını iş stajı olanlar üçün əmək kitabçasından çıxarışın surəti xanasına yükləməli, xasiyyətnamə xanasına isə A4 vərəqinə əlyazma və ya elektron fərq etmədən “mən heç bir yerdə işləmirəm” yazıb yükləməlidir.
- Əgər vətəndaşın əmək kitabçası yoxdursa, həm iş stajı olanlar üçün əmək kitabçasından çıxarışın surəti xanasına, həm də iş yerindən xasiyyətnamənin surəti xanasına A4 vərəqinə əlyazma və ya elektron fərq etmədən “mən heç bir yerdə işləmirəm” yazıb yükləməlidir.

***Sual 14. Eyni vaxtda iki müəssisəyə müraciət göndərə bilərəmmi?***

Eyni vaxtda iki müəssisəyə müraciət göndərmək olmaz.

***Sual 15. Hərbi sənəd vacibdirmi?***

Hərbi sənəd əsas sənəd kimi tələb olunmur, lakin hər hansısa müəssisə tələb edirsə, digər sənəd kimi əlavə oluna bilər.

***Sual 16. Bakalavr diplomu vacib sənəd kimi yüklənməlidirmi?***

Bakalavr diplomu vacib sənəd kimi yüklənməlidir.

***Sual 17. Tərcümeyi-hal hansı formada yüklənməlidir?***

Tərcümeyi-hal həm əlyazma, həm də elektron formada yüklənə bilər. Amma mütləq imzalanmalıdır.

***Sual 18. Sənədlər hansı formatda yüklənməlidir?***

Sənədlər JPG, PNG, PDF hər üç formatda yüklənə bilər.

***Sual 19. Elmi rəhbərin razılığı tələb olunurmu?***

Sənəd qəbulu prosesində doktoranturaya qəbul olmaq istəyən şəxs ali təhsil müəssisəsinə dəvət olunmalı, nəzərdə tutulan elmi rəhbər onunla müsahibə keçirməli və o, rəhbərliyi həyata keçirmək barədə razılıq və ya imtina qərarını yazılı surətdə qəbul komissiyasına təqdim etməlidir. İmtina olunduğu halda vətəndaşa digər elmi rəhbər təklif edilir. Elmi rəhbərin rəyi olmadan sənəd qəbulu tamamlanmamalıdır.